

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 aprel
2026-cı il,
cümə axşamı
№ 064 (7131)
Qiymәti
60 qәpik


# "Azərbaycan-Mərkəzi Asiya-Avropa" yaşıl enerji dəhlizi reallaşır



Bax səh. 2

## "Azərbaycanda dövlət siyasətinin ideoloji əsasları: gələcəyə baxış"

Bax səh. 4

## Güclənən Türk dünyası birliyi...



Bax səh. 2

### Valyuta Fondu Azərbaycanla bağlı gözləntilərini açıqlayıb

Beynəlxalq Valyuta Fondu (BVF) "Dünya iqtisadiyyatının perspektivləri" hesabatının aprel nəşrində region ölkələrinin iqtisadi inkişaf göstəricilərinə dair yeni baxışını əks etdirib. Hesabatda vurğulanır ki, Yaxın Şərq və Mərkəzi Asiyada artım templərinin 2025-ci ildəki 3,6 faiz göstəricisindən 2026-cı ildə 1,9 faizə düşəcək. Bunun başlıca səbəbi regiondakı münaqişənin (ABŞ, İsrail və İran) birbaşa bu ölkələrin...

Bax səh. 3

### Qlobal çağırışlar fonunda UNESCO-nun artan rolu

UNESCO-nun mənzil-qərargahında təşkilatın İcraiyyə Şurasının 224-cü sessiyası işinə başlayıb. Sessiya çərçivəsində keçirilən plenar debatlar hissəsində Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev tərəfindən ölkəmizin milli bəyanatı səsləndirilib.

Bəyanatda UNESCO-nun fəaliyyətində institusional səmərəliliyin, şəffaflığın və hesabatlılığın daha da gücləndirilməsinin...

Bax səh. 4

### Azad sahibkarlıq iqtisadi inkişafı sürətləndirir

Azad sahibkarlıq və liberal iqtisadiyyat sadəcə iqtisadi model deyil, cəmiyyətin inkişaf fəlsəfəsidir. Liberal iqtisadiyyat modeli göstərir ki, dövlətin iqtisadiyyata minimal müdaxiləsi, resursların daha səmərəli bölüşdürülməsinə şərait yaradır. Bu zaman qiymətləri, istehsalı və investisiyanı bazar, yəni tələb və təklif müəyyən edir. Nəticədə innovasiya sürətlənir, rəqabət artır və istehlakçı daha keyfiyyətli məhsul əldə edir...

Bax səh. 5

### Qvadelupada növbəti jandarm zorakılığı

Fransanın müstəmləkəçiliyi altında olan Qvadelupadan burada sistematik hal alan polis zorakılığı ilə əlaqədar daha bir xəbər gəlib. Bu barədə Bakı Təşəbbüs Qrupunun (BTQ) arayışında bildirilib. Vurğulandığı kimi, cari il aprelin 12-də Qvadelupanın Le Mul şəhərində Fransa hüquq-mühafizə orqanlarının iştirakı ilə baş vermiş insident nəticəsində 1 nəfər həyatını itirib. İlkin məlumatlara əsasən, hadisə zamanı...

Bax səh. 5

## Arxadan vurulan "zərbə"...

### Avropa ABŞ-ı niyə, neçəyə və kimə satdı?

Bax səh. 7

## Yaxın Şərqdə daha bir atəşkəs...



Bax səh. 6

## Danışıqlar: nə vaxt, harada?

### Aprelin 16-da ikinci raund baş tuta bilər

Bax səh. 7

# “Azərbaycan-Mərkəzi Asiya-Avropa” yaşıl enerji dəhlizi reallaşır

Avrasiya İnkişaf Bankı (AİB) “Mərkəzi Asiyanın energetikası: enerji keçidi və modernləşmə” adlı hesabat hazırlayaraq regionun enerji potensialını təhlil edib, alternativ enerjiyə keçidi qiymətləndirib. Hesabatda 2030-cu ilə kimi Mərkəzi Asiyanın enerjiyə tələbatının 40 faiz artacağı və 2035-ci ildə regionun tələbatının ödənilməsi üçün 62,8 giqavat həcmində enerjiyə ehtiyac yaranacağı bildirilib. Qeyd olunub ki, müasir dünyada süni intellektin inkişafı, elektromobillərin artması, yeni data mərkəzlərin yaranması və informasiya texnologiyalarının müxtəlif sahələrinin inkişafı və bunların ictimai həyatın bütün sahələrinə sirayət etməsi dayanıqlı elektrik enerjisi tələb edir. Hazırda dünyada ənənəvi üsullarla yanaşı, alternativ enerji istehsalına da külli miqdarda sərmayə yatırılır. Bankın mütəxəssisləri qeyd ediblər ki, müasir dünyada ənənəvi enerji istehsalından daha çox alternativ və bərpaolunan enerji sahəsinə 2 dəfədən çox sərmayə yatırılıb. Lakin enerji tələbatı onun istehsalını illər keçdikcə üstələyir.

## Mərkəzi Asiyadan Xəzərə

Hazırda dünyada sürətli enerji keçidi həyata keçirilir. 2024-cü ilə rekord sayda Günəş və külək enerjisi stansiyaları tikilib istifadəyə verilib. Müxtəlif ölkələrin enerji keçidi siyasətinin təhlili onu göstərir ki, dünyada bu keçidə 2 yanaşma mövcuddur. Bunlardan biri mühafizəkar yanaşmadır ki, bu da yeniliklə yanaşı, köhnə istehsalın saxlanmasını labüd edir. Lakin bu, sistemli şəkildə köhnəlib və atmosferə karbon qazının tullantısını artırır. Kömür, torf, neft və qaz kimi enerji daşıyıcıları istehsalı və nəqli baha başa gəldiyi kimi, ekologiyaya da zərər vurur. İkincisi isə texnoloji yanaşmadır. Bunun tərəfdarı olanlar tez bir zamanda tamamilə alternativ enerjiyə keçid edib karbon emissiyasını sıfra endirmək istəyənlərdir. Lakin dünyanın heç də bütün regionlarının coğrafi mövqeyi, yerləşməsi, relyefi və hava axınlarının istiqaməti və günəşli günlərinin sayı eyni deyil, tamamilə fərqlidir. Mərkəzi Asiya bu baxımdan çox əlverişli coğrafi mövqeyə malikdir ki, bu da region dövlətlərinə alternativ enerji istehsalını artırmaq, daxili tələbatı ödəmək və ixrac etmək imkanı verir. Alternativ və ənənəvi metodlarla birlikdə Mərkəzi Asiyanın 62,8 giqavat elektrik enerjisi istehsalı gücü var ki, bu da ildə 230 milyard kilovat-saat elektrik enerjisi hasilatı deməkdir. Həmin resursların Xəzərdəki “yaşıl enerji” bloklarına inteqrasiyası isə regionda nəhəng enerji mərkəzini formalaşdırır.



## Dörd ölkənin məktubu

“Yaşıl enerji” resurslarının istehsalı və emalının növbəti zənciri nəql infrastrukturunun yaradılmasıdır. Bu proses də Azərbaycanın təşəbbüsü ilə irəliləməkdədir. 2022-ci ildə Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Sazişin icrasını təmin etmək məqsədilə 2024-cü ilin may ayında Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan arasında yeni enerji əməkdaşlığı üzrə birgə müəssisənin yaradılmasına dair memorandum imzalanıb və “yaşıl enerji”nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb. Birgə müəssisənin yaradılmasından sonra “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi”nin icrasını təmin etmək üçün Rumıniyanın “Transelectrica”, Azərbaycanın “Azərenerji” ASC, Gürcüstanın “Elektrik Şəbəkəsi” və Macarıstanın “MVM” şirkəti arasında da saziş imzalanıb.

Budapeştdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında Yaşıl Enerji Dəhlizi üzrə birgə məktubun imzalanması oldu. Bu, həm də, “Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti”nin (GECO) fəaliyyətinin yeni mərhələyə daxil olmasını təmin edib. Qeyd edək ki, GECO “Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış yaşıl enerjinin inkişafı və ötürülməsi Sazişi”nin icrası məqsədilə dörd ölkənin təmsil olunduğu birgə müəssisədir.

## 4 qardaşın enerji həmrəyliyi

“Yaşıl enerji” həmrəyliyi halqası sonrakı dövrdə daha da genişlənib və türk dövlətləri olan Qazaxıstan və Özbəkistan dəhlizdə yer almaq niyyətlərini bəyan edib. 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı “Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan “təmiz” elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur. Bir müddət əvvəl Qırğızıstanın da dəhlizə qoşulmaq niyyətini bəyan etməsi ilə 4 türk dövlətinin yaşıl koalisiyası formalaşmış olur.

Sənəd Xəzər dənizində qiymətləndirilən 500 QVt-dan çox külək enerjisinin Azərbaycan üzərindən Avropaya nəqlini nəzərdə tutur. Hazırda Xəzər dənizi bərpa olunan enerji mənbələri üzrə ən böyük ehtiyatlara malikdir. Təkcə Xəzər dənizinin Azərbaycana aid hissəsində külək enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Eləcə də Qazaxıstan sektorunda da günəş və külək stansiyaları üçün zəngin resurslar var ki, hazırda bu sahədə infrastrukturlar yaradılır. Bu ölkənin külək potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çoxdur, günəş enerjisi isə 1 trilyon kilovat/saatdır. Yaxud  Özbəkistanın Asiya çöllərində günəş enerjisi üçün resurslar xeyli böyükdür, külək enerjisinin potensialı 520 QVt, günəş enerjisinin potensialı isə 2 trilyon 58 milyard kVt təşkil edir. Bu isə Mərkəzi Asiya və Xəzər regionları arasında böyük bir yaşıl gücün səfərbər olunması üçün imkanları artırır.

## Cənub Qaz Dəhlizinin “yaşıl tranziti”

Azərbaycan “Qara dəniz kabeli”ni həm də Cənub Qaz Dəhlizində yer alan bütün ölkələrin ortaq ailəsi kimi görür və siyasəti də bu istiqamətdə irəliləyir. Bir müddət əvvəl Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin və Yaşıl Enerji Məşvərət Şurasının iclaslarında “yaşıl enerji” vacib əməkdaşlığın ən nəhəng platforması kimi dəyərləndirilib. Bu layihə çərçivəsində “yaşıl hidrogen”lə bağlı ölkələrarası dialoqun artırılması qərara alınıb. Eyni zamanda, Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 8 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə “yaşıl enerji” sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.

Yeri gəlmişkən, ərəb dövlətləri də “yaşıl enerji”nin türk koalisiyasına qoşulmağı planlaşdırır. Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri artıq xeyli müddətdir ki, Mərkəzi Asiya və Azərbaycanda “yaşıl layihələr”də təmsil olunur. Bu baxımdan Qara dəniz kabeli layihəsinin gələcəkdə Yaxın Şərq regionunu da əhatə edəcəyini və Şərq-Qərb enerji dəhlizinin formalaşacağını söyləmək mümkündür. “Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan, Qazaxıstan, Özbəkistan və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı”nın imzalanması da bunu deməyə əsas verir.

Beləliklə, Azərbaycan, Özbəkistan, Qazaxıstanın və Qırğızıstanın “yaşıl enerji” dəhlizi layihəsində birgə yer alması Mərkəzi Asiya-Xəzər bölgəsində yeni enerji arxitekturasını quracaq. Azərbaycan tranzit ölkə olaraq özünün istehsal etdiyi enerji ilə yanaşı, Mərkəzi Asiyadan daxil olan enerjini də Avropaya ötürəcək. Xəzər və Qara dənizin dibi ilə çəkiləcək elektrik kabelinin nəql marşrutu isə Avropa ölkələrini nəzərdə tutur. Beləliklə, “Azərbaycan-Mərkəzi Asiya-Avropa” yaşıl enerji dəhlizi tam olaraq real bir enerji layihəsi olmalqa, regionda sabitliyin və həmrəyliyin simvoluna çevriləcək.

***E.CƏFƏRLİ***

# Güclənən Türk dünyası birliyi...

## Antalyada TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclası keçiriləcək

Aprelin 17-dən 19-dək Türkiyədə keçiriləcək Antalya Diplomatiya Forumu (ADF-2026) dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət başçılarını, həmçinin nazirləri bir araya gətirəcək. “Gələcəyi planlaşdırarkən problemlərin öhdəsindən gəlmək” mövzusunda keçiriləcək tədbir Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın himayəsi altında qardaş ölkənin xarici siyasət idarəsinin ev sahibliyi ilə baş tutacaq. İlk dəfə 2021-ci ildə keçirilən Antalya Diplomatiya Forumu bu il 150-dən çox ölkədən 20-dən çox dövlət və hökumət başçısı, təxminən 15 dövlət və hökumət başçısının müavini, 50-dən çox nazir (bunlardan 40-dan çoxu xarici işlər naziridir) və beynəlxalq təşkilatlardan 75 nümayəndə, eləcə də akademiklər və tələbələr də daxil olmaqla təxminən 5000 qonağın iştirakı ilə keçiriləcək. Dövlət başçılarının təxminən yarısının Afrika və Avropadan, xarici işlər nazirlərinin isə Afrika, Avropa və Asiyadan olacağı gözlənilir.

## “ADF-2026” çərçivəsində 40-dan çox tədbir keçiriləcək

“ADF-2026” çərçivəsində panellər də daxil olmaqla 40-dan çox tədbir və sessiyanın keçirilməsi planlaşdırılır. Sessiyalarda qlobal sistemdə dərinləşən qeyri-müəyyənliklər və transformasiya prosesləri, eləcə də regional inkişaflar da daxil olmaqla geniş məsələlər müzakirə olunacaq, siyasi, iqtisadi, ekoloji və texnoloji oxlarla formalaşan əsas gündəm maddələri müzakirələrin mərkəzində olacaq. Bundan başqa, “ADF-2026” çərçivəsində Balkan Sülh Platforması xarici işlər nazirlərinin üçüncü görüşü, Qəzza ilə bağlı səkkiztərəfli görüş və Türkiyə-Pakistan-Səudiyyə Ərəbistanı-Misir toplantısı da keçiriləcək.

Forumda  Türk Dövlətləri Təşkilatı (TDT) Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclası nəzərdə tutulur. Xatırladaq ki, ötən il “ADF-2025” çərçivəsində “Türk Dövlətləri Təşkilatı: Özünəməxsus bir əməkdaşlıq modeli” mövzusunda panel iclas keçirilmişdi. Tədbirdə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov, Türk Dövlətləri Təşkilatının  Baş katibi Kubanıçbek Ömüralıyev, TDT-nin Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev, Özbəkistan Ali Məclis Senatı sədrinin birinci müavini Sodiq Safoyev, Qırğızıstan Prezidentinin xüsusi nümayəndəsi, bu ölkənin xarici işlər nazirinin müavini Asein İsayev iştirak etmişdilər.

Kapadokya Universitetinin rektoru Hasan Ali Karasarın moderatorluğu ilə keçirilən paneldə Türk Dövlətləri Təşkilatı ölkələri arasındakı əməkdaşlığın ticarət, enerji, maliyyə, turizm, təhsil, mədəniyyət kimi mühüm sahələri əhatə etdiyi vurğulanmış, çıxış edənlər bildirmişdilər ki, ortaq kimlik və regional mənsubiyyət əsasında qurulan və əməkdaşlıq sahələri hər gün daha da dərinləşən TDT güclü siyasi iradə əsasında formalaşaraq beynəlxalq quruma çevrilib.

## TDT XİN başçılarının görüşləri ənənə halını alıb

Onu da qeyd edək ki, TDT üzv ölkələrinin XİN başçılarının görüşləri ənənəvi xarakter daşıyır. Bu formatda sonuncu qeyri-rəsmi toplantı ötən ay - martın 6-da İstanbulda baş tutmuşdu. Türkiyənin xarici işlər naziri Hakan Fidanın ev sahibliyi etdiyi iclasda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Qırğızıstanın xarici işlər naziri Ceenbek Kulubayev, Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov və Qazaxıstanın xarici işlər nazirinin müavini Alibek Bakayev, həmçinin Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev və onları müşayiət edən nümayəndə heyətləri iştirak ediblər.

İclasda ilk olaraq ev sahibi qismində Türkiyənin xarici işlər naziri Hakan Fidan açılış nitqi və Türk Dövlətləri Təşkilatının sədrliyini həyata keçirən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çıxış ediblər. Hər iki nazir üzv dövlətlər arasında sıx koordinasiyanın davam etdirilməsinin və təşkilatın prioritetlərinin irəli aparılmasının vacibliyini vurğulayıblar.

Toplantıda nazirlər regional və qlobal inkişaflar barədə geniş məsləhətləşmələr aparıblar. Xüsusilə də yaxın regionlarda silahlı münaqişələrin və hərbi əməliyyatların genişlənməsi nəticəsində yaranan insan təlefatına və humanitar çağırışlara diqqət yetirilib. Həmçinin Yaxın Şərqdə zorakılığın son vaxtlar artmasından və onun dağıdıcı nəticələrindən dərin narahatlıq ifadə olunub, günahsız mülki şəxslərin həyatını təhlükəyə atan və regional sabitliyə xələl gətirən bütün hərəkətlər pislənilib.

Nazirlər, eyni zamanda TDT çərçivəsində mövcud gündəliyi müzakirə edərək siyasi dialoqun gücləndirilməsi, korporativ əməkdaşlığın inkişaf etdirilməsi və Türk dünyasında inteqrasiyanın daha da dərinləşdirilməsinə yönəlmiş ortaq təşəbbüslərin irəlilədilməsi məsələləri barədə fikir mübadiləsi aparıblar. Bu çərçivədə regional və beynəlxalq səviyyədə dialoq, əməkdaşlıq və tərəfdaşlıqları təşviq etməyi və TDT-nin çoxtərəfli diplomatiya sahəsində təsirini artırmağı hədəfləyən TDT+ formatı və xarici tərəflərlə əməkdaşlıq qaydaları imzalanıb. İclasın sonunda xarici işlər nazirləri Yaxın Şərqdəki son inkişaflara dair birgə bəyanat qəbul ediblər.



## Səmərəli müzakirələr...

Proseslər göstərir ki, dünyanın mövcud geosiyasi şərtləri fonunda türk dövlətləri arasında əməkdaşlıq münasibətləri bu gün daha vacib xarakter daşıyır. Xüsusilə Avrasiyada mühüm geostrateji proseslərin baş verdiyi zamanda türk dövlətləri arasında çoxşaxəli, səmərəli və uğurlu əlaqələrin mövcud olması regional təhlükəsizlik, beynəlxalq inteqrasiya kontekstində çox mühüm əhəmiyyətə malikdir. XXI əsrdə yeni dünya düzəninin formalaşdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı da öz gücünü artırmaqdadır.  Malik olduğu resurslar, əhali sayı, coğrafi mövqeyi baxımından Türk dünyası artıq qlobal miqyasda əsas geosiyasi, geoiqtisadi güc mərkəzlərindən birinə çevrilir. Bu baxımdan, Antalya Diplomatiya Forumunda keçiriləcək TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi görüşündə türk dünyasının birliyinin daha da gücləndirilməsi üçün səmərəli müzakirələrin aparılacağı şübhə doğurmur.

***Nardar BAYRAMLI***

# “Azərbaycanda dövlət siyasətinin ideoloji əsasları: gələcəyə baxış”





Aprelin 15-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Azərbaycanda dövlət siyasətinin ideoloji əsasları: gələcəyə baxış” mövzusunda tədbir keçirilib.

Əvvəlcə YAP Suraxanı rayon təşkilatının inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü ziyarət olunaraq önünə gül dəstələri düzülüb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mübariz Qurbanlı, YAP Veteranlar Şurasının üzvü Fidumə Hüseynova, Milli Məclisin deputatı Sevinc Fətəliyeva və YAP Suraxanı rayon təşkilatının gənc üzvü Şahnaz Heybətova çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Azərbaycan Konstitusiyası dövlətçilik ideologiyasının əsaslarını özündə ehtiva edir. Xüsusilə, ölkədə dövlət siyasətinin ideoloji əsasları demokratik ənənələr, milli həmrəylik, davamlı iqtisadi inkişaf və insan amilinə əsaslanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs müasir çağırışlara adekvat cavab verən, suverenliyimizi möhkəmləndirən və innovativ inkişafı hədəfləyən gələcəyə baxış modelini formalaşdırır. Azərbaycançılıq ideologiyası isə xalqımızın birlik və həmrəylik nümayiş etdirməsində müstəsna əhəmiyyət kəsb edir.

Qeyd edilib ki, müasir Azərbaycanın ideoloji təməli Ümummilli Liderin siyasi irsinə və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən strateji kursa əsaslanır. Milli maraqların təmin olunması, müstəqil xarici siyasətin həyata keçirilməsi, ərazi bütövlüyünün və suverenliyin qorunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Gələcəyə baxış kontekstində də dövlətimizin ideoloji əsasları strateji əhəmiyyət kəsb edir. Belə ki, ölkəmizdə perspektiv baxımından şaxələndirilmiş, rəqabətqabiliyyətli və innovasiyayönümlü iqtisadiyyat formalaşdırılıb.

Vurğulanıb ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri həyata keçirilir, Böyük Qayıdış Proqramı uğurla icra olunur və regionda sülhün təmin olunması istiqamətində ardıcıl siyasət aparılır. Bütün bunlar Azərbaycanın beynəlxalq müstəvidə mövqeyinin daha da güclənməsinə töhfə verir.

Diqqətə çatdırılıb ki, güclü ideoloji əsaslara söykənən dövlət siyasəti Azərbaycanın gələcəkdə də möhtəşəm nailiyyətlər qazanmasını şərtləndirir. Yeni Azərbaycan Partiyasının da hər zaman cəmiyyətdə ideoloji iş apararaq dövlət siyasətinə fəal dəstək verdiyi xüsusi vurğulanıb.

Tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

Daha sonra Suraxanı rayonunun ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə fərqlənən bir qrup şəxsə fəxri fərman və hədiyyələr, YAP sıralarına yeni qəbul olunmuş üzvlərə isə partiya vəsiqələri təqdim edilib.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Qlobal çağırışlar fonunda UNESCO-nun artan rolu

## Səfir Elman Abdullayev tərəfindən ölkəmizin milli bəyanatı yayılıb

UNESCO-nun mənzil-qərargahında təşkilatın İcraiyyə Şurasının 224-cü sessiyası işinə başlayıb. Sessiya çərçivəsində keçirilən plenar debatlar hissəsində Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev tərəfindən ölkəmizin milli bəyanatı səsləndirilib.

Bəyanatda UNESCO-nun fəaliyyətində institusional səmərəliliyin, şəffaflığın və hesabatlılığın daha da gücləndirilməsinin vacibliyi vurğulanıb, təşkilatın prioritetləri ilə mövcud resurslar və icra mexanizmləri arasında uyğunluğun təmin edilməsinin əhəmiyyəti qeyd olunub. Eyni zamanda, qlobal çağırışlar fonunda UNESCO-nun təhsil, elm və mədəniyyət sahələrində dialoq və əməkdaşlığın təşviqində oynadığı mühüm rol diqqətə çatdırılıb.

**Respublikamızın beynəlxalq təşkilatlarda yüksək fəallığı**

Həyata keçirdiyi balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ilə regional və qlobal əməkdaşlığa mühüm töhfələr verən, etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq modelinə malikdir. O cümlədən BMT, Avropa İttifaqı, NATO, İƏT, QH və digər dünya siyasətində söz sahibi olan bu kimi təşkilatlar Azərbaycanla əməkdaşlığa böyük önəm verirlər. Hazırda respublikamız həm Qlobal Qərbi, həm də Qlobal Şərqi təmsil edən çoxsaylı təşkilatların üzvüdür ki, bu da Azərbaycan diplomatiyasının böyük uğurudur.

Ölkəmiz hər zaman özünün geniş imkanlarını təqdim etməklə üzv olduğu beynəlxalq təşkilatların fəaliyyətinin səmərəliliyinin artmasına sanballı töhfələr verir. Dünya Azərbaycan BMT TŞ-nin qeyri-daimi üzvü kimi fəaliyyət göstərərkən, Qoşulma Hərəkatına sədrlik həyata keçirərkən və digər məqamlarda bunun şahidi olub. Ölkəmiz hər zaman meydana çıxan qlobal çağırışlara beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüsləri ilə cavab verir.

Azərbaycan həmçinin UNESCO ilə əlaqələrinin genişlənməsinə böyük önəm verir. Təşkilatla səmərəli əməkdaşlığın nəticəsidir indiyədək Azərbaycanın ayrı-ayrı görkəmli şəxsiyyətlərinin yubileyləri UNESCO çərçivəsində qeyd edilib. Bu sırada Füzulinin 500 illik, “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik, “Leyli və Məcnun” operasının ilk tamaşasının, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin 100 illik yubileylərinin qeyd edilməsini misal çəkə bilərik. O cümlədən Azərbaycan muğamının, Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun, İçərişəhərin, Qız qalasının, Şirvanşahlar Sarayı Kompleksinin, Şəki şəhərində Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya İrs Siyahısına, aşıq, xalçaçılıq, tar ifaçılığı və hazırlanması sənətlərinin, Novruz bayramının, dolma, lavaş və kələğayının, Lahıc misgərlik sənətinin, Çövkən oyununun UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə reprezentativ siyahısına daxil edilməsi respublikamızın təşkilatla səmərəli əməkdaşlığının bəhrəsidir.




**Dəyişən dünyada dialoq və əməkdaşlığın təşviqi**

Narahat dünyada yaşayırıq. Səngimək bilməyən müharibələr, artan iqlim dəyişmələri, sürətli urbanizasiya problemləri daim qarşıya yeni çağırışlar çıxardır. Belə şəraitdə bəşəriyyətin gələcəyi naminə ölkələrin və beynəlxalq təşkilatların məsuliyyəti də artır. Bu kontekstdə ölkəmizin milli bəyanatında diqqətin bir sıra vacib məqamlara yönəldilməsi təqdirəlayiq haldır. Çıxış zamanı təşkilat daxilində üzv ölkələr ilə katiblik arasında koordinasiyanın gücləndirilməsinin zəruriliyi vurğulanıb, bu istiqamətdə aparılan islahatların əhəmiyyəti qeyd edilib. Həmçinin bildirilib ki, dəyişən qlobal mühit şəraitində qarşılıqlı anlaşma, dialoq və əməkdaşlığın təşviqi mühüm əhəmiyyət kəsb edir və UNESCO-nun mandatı bu sahədə xüsusi rol oynamağa imkan verir.

Bununla yanaşı, plenar debatlar zamanı Daimi Nümayəndəlik tərəfindən ölkəmizin Qrup 77 və Çin Paris bölməsi, eləcə də UNESCO-da fəaliyyət göstərən Türk Dövlətləri Qrupu adından bəyanatlar səsləndirilib.

Qrup 77 və Çin adından səsləndirilmiş bəyanatda çoxtərəfliliyə, beynəlxalq əməkdaşlığa və həmrəyliyə sadiqlik bir daha təsdiqlənib, inkişaf etməkdə olan ölkələrin prioritetlərinin irəli aparılmasında kollektiv fəaliyyətin əhəmiyyəti vurğulanıb. Eyni zamanda, Dayanıqlı İnkişaf Məqsədi 4 çərçivəsində inklüziv və keyfiyyətli təhsilin təşviqi, təhsilin ana dilində verilməsinin əhəmiyyəti, eləcə də təhsilin davamlı inkişafın əsas hərəkətverici qüvvəsi kimi rolu qeyd olunub.

Bəyanatda, həmçinin UNESCO-nun qlobal prioritetləri olan Afrika və gender bərabərliyi, eləcə də Kiçik Ada İnkişaf etməkdə olan Dövlətlər (SIDS) və gənclərlə bağlı təşəbbüslərə dəstək ifadə olunub, təşkilatın proqram və büdcə çərçivəsində üzv dövlətlərə daha güclü dəstək göstərilməsinin vacibliyi vurğulanıb. Bununla yanaşı, UNESCO80 Yol Xəritəsinə dəstək ifadə edilib, inkişaf etməkdə olan ölkələrin baxışlarının qərar qəbuletmə proseslərində əks olunmasının əhəmiyyəti qeyd edilib.

**İrqçilik, ksenofobiya və nifrət nitqinə qarşı mübarizənin zəruriliyi**

Dünyanın gözəlliyi və cəlbediciliyi onun çoxmədəniyyətli olmasındadır. Ayrı-ayrı xalqların tarix boyunca qoruduqları ənənələr, maddi və qeyri-maddi irs nümunələri dünyanı bənzərsiz edir. Ancaq təəssüf doğuran haldır ki, hazırda bu rəngarəngliyə, bizim birgə yaşayışımıza təhdidlər yaranıb və belə zərərli tendensiyanın əhatə dairəsi getdikcə genişlənir. Plenar debatda Türk Dövlətləri Qrupu adından səsləndirilmiş bəyanatda çoxtərəfliliyin gücləndirilməsi, türk dövlətləri arasında ortaq tarixi və mədəni irsin qorunması və təşviqi, o cümlədən UNESCO çərçivəsində birgə təşəbbüslərin irəli sürülməsi vurğulanıb. Eyni zamanda, irqçilik, ayrı-seçkilik, ksenofobiya və nifrət nitqinə qarşı mübarizənin əhəmiyyəti qeyd olunub, iqlim dəyişikliyi, su təhlükəsizliyi və davamlı inkişaf kimi qlobal çağırışlara qarşı elmi əməkdaşlığın gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Bəyanatda, həmçinin rəqəmsal transformasiya və süni intellektin etik istifadəsi məsələləri əksini tapıb, Türk dünyasının dil və mədəni irsinin beynəlxalq səviyyədə tanıdılmasının əhəmiyyəti qeyd edilib.

***Mübariz ABDULLAYEV***

# Azad sahibkarlıq iqtisadi inkişafı sürətləndirir

Azad sahibkarlıq və liberal iqtisadiyyat sadəcə iqtisadi model deyil, cəmiyyətin inkişaf fəlsəfəsidir. Liberal iqtisadiyyat modeli göstərir ki, dövlətin iqtisadiyyata minimal müdaxiləsi, resursların daha səmərəli bölüşdürülməsinə şərait yaradır. Bu zaman qiymətləri, istehsalı və investisiyanı bazar, yəni tələb və təklif müəyyən edir. Nəticədə innovasiya sürətlənir, rəqabət artır və istehlakçı daha keyfiyyətli məhsul əldə edir. Azad sahibkarlıq isə bu sistemin dinamik qüvvəsidir. Sahibkarlar risk götürür, yeni ideyaları bazara çıxarır və iqtisadi artımın əsas mühərrikinə çevrilirlər. Tarix göstərir ki, sahibkarlığın qarşısındakı süni maneələr azaldıqca, iqtisadi rifah yüksəlir və iş imkanları genişlənir.

Azərbaycanda son illərdə həyata keçirilən iqtisadi islahatlar sahibkarlıq fəaliyyətinin sadələşdirilməsi, vergi yükünün optimallaşdırılması və investisiya mühitinin yaxşılaşdırılmasına yönəlib. Bu isə həm yerli, həm də xarici investorlar üçün daha cəlbedici şərait yaradır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**

## Fərdi sahibkarların sayı 1 milyon 472 mini keçib

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən 2026-cı il aprelin 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 472 mini ötüb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, hesabat dövründə hər dörd fərdi sahibkardan üçü “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq”, “Ticarət; nəqliyyat vasitələrinin təmiri”, “Nəqliyyat və anbar təsərrüfatı” və “Digər sahələrdə xidmətlərin göstərilməsi” sahələri üzrə qeydiyyatdan keçib.

Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (25,9 faiz), Lənkəran-Astara (10,2 faiz), Qazax-Tovuz (7,9 faiz) və Mərkəzi Aran (7,2 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb. Fərdi sahibkarların 76,2 faizini kişilər, 23,8 faizini isə qadınlar təşkil edib. Qadınlar “Digər sahələrdə xidmətlərin göstərilməsi” fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 38,3 faizini, “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq” fəaliyyəti sahəsində 26,2 faizini, “Ticarət; nəqliyyat vasitələrinin təmiri” fəaliyyət sahəsində isə 22,3 faizini təşkil edir. Sahibkar qadınların 28,1 faizi Bakıda, 10 faizi Lənkəran-Astara, 9,6 faizi Qazax-Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib.

Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Qazax-Tovuz (28,8 faiz), Naxçıvan Muxtar Respublikası (27,9 faiz), Gəncə-Daşkəsən (26,2 faiz), Bakı (25,8 faiz), Şərqi Zəngəzur (24,9 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.



## Naxçıvanda sahibkarlara 33 təsdiqedici sənəd verilib

Cari ilin yanvar-mart ayları ərzində Naxçıvan Muxtar Respublikasında sahibkarlığın dəstəklənməsi istiqamətində 9 sahibkarlıq subyektinə 33 təsdiqedici sənəd verilib. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, müvafiq investisiya təşviqi sənədi olan müəssisələrə təqdim olunan 5 təsdiqedici sənəd əsasında 1,5 milyon manat dəyərində Rusiya, Çin, Türkiyə mənşəli texnika, texnoloji avadanlıqlar və qurğular idxal edilib.

2026-cı il yanvarın 1-dən qüvvəyə minən vergi, gömrük və sosial sığorta güzəştlərinə əsasən, 28 təsdiqedici sənəd əsasında 2,4 milyon manat dəyərində xammal və materialların Avstriya, İran, İraq, Gürcüstan kimi ölkələrdən idxalı həyata keçirilib. Ötən 3 ay ərzində idxal olunan xammal, material və texnoloji avadanlıqlara əlavə dəyər vergisi və gömrük rüsumları üzrə 1,1 milyon manat dəyərində güzəştlər tətbiq edilib. Bütün bunların nəticəsi olaraq qida məhsulları, tütün məmulatları, sərinləşdirici içkilər, mineral sular, metal və plastik məmulatlar istehsal edən müəssisələrin emal gücü və ixrac potensialı artıb.

## Azad ərazilərdə sahibkarlıq inkişaf edir

Azad sahibkarlıq işğaldan azad edilmiş ərazilərdə də inkişaf etməkdədir. Bu bölgədə çalışan sahibkarlara 2023-cü ilin əvvəlindən etibarən 10 il müddətinə vergi və fiskal güzəştlərin tətbiq edilməsi, onların gəlir, mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən, istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalı üzrə ƏDV-dən azad edilməsi fəaliyyət imkanlarını daha da genişləndirir. Eləcə də, qeyri-dövlət və qeyri-neft sahələrində fəaliyyət göstərən sahibkarların məcburi dövlət sosial sığorta haqqı dövlət büdcəsi vəsaiti hesabına subsidiyalaşdırılır ki, bütün bu güzəşt və stimullar sahibkarların istehsal xərclərinin azalmasına, yığım imkanlarının genişlənməsinə və təkrar investisiya üçün əlverişli maliyyə mənbələrinin yaradılmasına imkan verir, həmçinin istehsal olunan mal və xidmətlərin maya dəyərinin optimallaşdırılması yolu ilə rəqabət qabiliyyətinin dəstəklənməsini təmin edir. Həmçinin, bu bölgədə işləyən sahibkarların maliyyə-kredit təminatı ilə bağlı tədbirlər çərçivəsində investisiya layihəsinin maliyyələşdirilməsinə güzəştli kredit verilməsi artmaqdadır.

***Yeganə BAYRAMOVA***

# Bank kartları ilə ödənişlərdə yeni qayda

## Xidmət haqqı tariflərinə limitlər qoyulacaq

Mərkəzi Bankın (MB) İdarə Heyətinin qəbul etdiyi yeni qərara əsasən, ödəniş sistemlərinin iştirakçıları arasında tətbiq olunan xidmət haqqı tariflərinin yeni həddi müəyyənləşib. Belə ki, həmin təşkilatların iştirakçıları üzrə interçeync haqlarının (xidmət haqqı tariflərinin) yuxarı həddi təyin olunub. Bu, o deməkdir ki, ölkə daxilində ödəniş kartları ilə aparılan əməliyyatlarda banklararası komissiyanın maksimal faizi fəaliyyət sahəsinə görə məhdudlaşdırılır və xidmət haqqı tariflərinin yeni komissiya həddi müəyyənləşir. Xüsusilə də ticarət, xidmət və s. əməliyyatlarda kartdan istifadə edən şəxslərə həmin xidməti göstərən tərəf, yəni ödəniş təşkilatları tərəfindən yeni komissiyalar tətbiq olunacaq.

Komissiya tarifləri “Drug Stores and Pharmacies” və “Grocery Stores and Supermarket” kateqoriyalarına aid MCC kodlar üzrə aparılan ödənişlərdə ödəniş məbləğinin 1,25 faizi, “Petrol” kateqoriyasına aid MCC kodlar üzrə aparılan ödənişlərdə ödəniş məbləğinin 0,75 faizi, “General” kateqoriyasına aid MCC kodlar üzrə aparılan ödənişlərdə ödəniş məbləğinin 1,5 faizi həddində nəzərdə tutulur. Yəni, aptek, market və supermarketlərdə 1,25, yanacaqdoldurma məntəqələrində 0,75, digər ümumi kateqoriyalarda 1,5 faiz komissiya tutulacaq. Qərarda nəzərdə tutulmayan digər MCC kodları üzrə isə yuxarı hədd müəyyən edilmir. Bu qərarın vətəndaşların əməkhaqqı kartları ilə bağlı əməliyyatlara, nağd və ya qeyri-nağd tranzaksiyalara aidiyyatı yoxdur.

### İnterçeync nədir və komissiya necə hesablanır?

İnterçeync ödəniş kartları ilə aparılan əməliyyatlar zamanı banklar arasında tətbiq olunan komissiya növüdür. Bu komissiya birbaşa kart sahibindən deyil, əməliyyatda iştirak edən banklar arasında hesablaşma prosesində tutulur. Kartla ödəniş zamanı 3 əsas tərəf iştirak edir: kartı təqdim edən bank (emitent), ödənişi qəbul edən tərəfin bankı və ödəniş sistemi (“Visa” və ya “Mastercard”). Müştəri kart vasitəsilə ödəniş etdikdə ekvayer bank əməliyyatı icra edir və müəyyən faiz həcmində vəsaiti emitent banka ötürür. Məhz bu məbləğ interçeync komissiyası adlanır. Bu məbləğ birbaşa alıcıdan deyil, POS-terminal vasitəsilə ödənişi qəbul edən obyektin banka ödədiyi xidmət haqqından formalaşır və banklar arasında bölüşdürülür. Yəni komissiya əsasən ticarət obyektləri tərəfindən ödənilir. Nəticə etibarilə, interçeync birbaşa vətəndaşdan tutulmasa da, ticarət obyektləri bu xərcləri qiymətlərə daxil edə bildiyindən dolayı şəkildə istehlakçılara təsir göstərə bilər.

İndiyə qədər interçeync faizləri bankların daxili tarif siyasətinə uyğun dəyişirdi və daha yüksək diapazonda tətbiq olunurdu. Yeni qərarla komissiyalara yuxarı limit qoyulur. Nəticədə bu dəyişiklik sahibkarlıq subyektlərinin banklara ödədiyi xərci azaldacaq, kartla ödənişdən yayınma hallarını minimuma endirəcək, nağdsız ödənişləri daha cəlbedici edəcək, habelə tariflərin daha şəffaf olmasına şərait yaradacaq.



### Nağdsız dövriyyə genişlənəcək, sahibkarların xərcləri azalacaq

Mütəxəssislərin fikrincə, interçeync haqlarının məhdudlaşdırılması rəqəmsal bank sisteminə sürətli keçid üçün mühüm amillərdən biridir, eyni zamanda, nağdsız dövriyyənin genişlənməsinə və kart ödənişlərinin daha geniş tətbiqinə müsbət təsir göstərir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov interçeync üçün yuxarı hədlərin müəyyənləşdirilməsi müsbət hal hesab edir. Qeyd olunduğuna görə, son dövrlər xüsusilə pərakəndə ticarətlə məşğul olan sahibkarlar məhz interçeync və posterminallardan istifadə haqlarının yüksək olduğunu bildirirdilər. Aparılan monitorinqlər də göstərirdi ki, bu tariflərin yüksək olması sahibkarın xərcinə, xüsusən də mikro kiçik və orta sahibkarların fəaliyyətinə təsir göstərir. Çünki pərakəndə ticarətlə məşğul olan sahibkarlar bu xərcləri praktik olaraq digər kiçik sahibkarlara transfer edirlər. Bu addım müəyyən mənada sahibkarların xərclərinin azalmasına gətirib çıxaracaq.

Bütün bunlara baxmayaraq, tariflər yüksək hesab edilə bilər. Bunu V.Bayramov da etiraf edir. Millət vəkilinin sözlərinə görə, sahibkarların əhəmiyyətli hissəsi “General” kateqoriyasına uyğun xidmətə qoşulub ki, bu kateqoriya üzrə interçeync üçün yuxarı hədd 1,5 faiz müəyyənləşib. Əksər ölkələrdə, xüsusən də Avropa İttifaqına üzv olan ölkələrdə, o cümlədən əksər region ölkələrində bu tariflər 1 faizdən aşağıdır. Ona görə də, müəyyənləşmiş hədlər sahibkarların inkişafına dəstək olsa da, xərclərinin bu istiqamətdə kəskin azalmasına gətirib çıxarmayacaq.

***E.CƏFƏRLİ***

# Qvadelupada növbəti jandarm zorakılığı

Fransanın müstəmləkəçiliyi altında olan Qvadelupadan burada sistematik hal alan polis zorakılığı ilə əlaqədar daha bir xəbər gəlib. Bu barədə Bakı Təşəbbüs Qrupunun (BTQ) arayışında bildirilib. Vurğulandığı kimi, cari il aprelin 12-də Qvadelupanın Le Mul şəhərində Fransa hüquq-mühafizə orqanlarının iştirakı ilə baş vermiş insident nəticəsində 1 nəfər həyatını itirib. İlkin məlumatlara əsasən, hadisə zamanı şübhəli şəxsə qarşı əvvəlcə öldürücü gücü olmayan elektroşok cihazından istifadə olunub, lakin daha sonra fransız jandarma əməkdaşlarından biri tərəfindən odlu silahdan atəş açılıb. Nəticədə, həmin şəxs aldığı xəsarətlərdən həyatını itirib. Hadisədən sonra ərazidə vəziyyətin gərginləşdiyi, yerli əhali ilə polis arasında qarşıdurma hallarının baş verdiyi bildirilir.

BİRLİK-AZADLIQ-MÜSTƏQİLLİK
BAKI TƏŞƏBBÜS QRUPU

## BTQ-nin dekolonizasiya prosesinə mühüm töhfələri

BMT Baş Assambleyası 1960 - cı il dekabrın 14-də “Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında Bəyannamə” sənədini qəbul etsə də Fransa, Niderland kimi ölkələr keçmişin üzqarası siyasətindən - müstəmləkəçilikdən əl çəkmək istəmirlər. Məsələn, Fransa imperiyasının mənimsədiyi son müstəmləkə ölkələrində (Polineziya, Yeni Kaledoniya, Martinika, Fransız Qvianası, Qvadelupa, Korsika, Mayot) və keçmiş müstəmləkə ərazilərində (Seneqal, Əlcəzair) Yelisey Sarayının demokratiya, bərabərlik, qardaşlıq prinsipləri ilə bir araya sığmayan qəddar kolonializm siyasətinin son dərəcə kədərli izlərini görmək mümkündür. Ayrı-seçkiliyə əsaslanan kolonial siyasətindən əl çəkmək istəməyən dövlətlər müstəmləkə əraziləri ətrafında bir növ informasiya blokadası yaradıblar. Azadlıq mübarizəsinə başlayan xalqların səsi amansızcasına boğulur.

Burada Bakı Təşəbbüs Qrupunun cəsarətli fəaliyyəti diqqət çəkir. Məlumdur ki, qurumun yaradılmasına 6 iyul 2023-cü ildə Qoşulmama Hərəkatının Əlaqələndirmə Ofisinin Nazirlər Toplantısı çərçivəsində Bakıda keçirilmiş dəyirmi masada qərar verilib. Qısa müddətdə BTQ azadlıq mübarizəsi aparan xalqların səsinə çevrilib desək, əsl həqiqəti ifadə etmiş olarıq. Qurum indiyədək Bakıda və ölkəmizin hüdudlarından kənarda müstəmləkəçilikdən xilas olmaq istəyən xalqların nümayəndələrinin iştirakı ilə çoxlu konfranslar keçirib. Vurğulamaq yerinə düşər ki, BTQ-nin bir neçə bəyanatı BMT səviyyəsində yayılıb. Əlamətdar haldır ki, qurum fəaliyyətini getdikcə daha da genişləndirir.

Bu il BTQ-nin təşkilatçılığı ilə müstəmləkəçiliyə həsr edilmiş Virtual Muzeyin rəsmi təqdimat mərasimi keçirilib. Bəhs olunan muzey dünyada müstəmləkəçiliyə və onun yeni təzahürlərinə həsr edilmiş ilk virtual platformadır. BTQ-nin icraçı direktoru Abbas Abbasov bildirib ki, qurum dünyada dekolonizasiya prosesinə töhfə vermək səylərini bundan sonra da davam etdirəcək.

## İctimai fəallığa çağırış

Qvadelupa artıq 4 əsrdir ki, Fransanın müstəmləkəçiliyi altındadır. Lakin Yelisey Sarayının yüz illikləri əhatə edən nəzarəti yerli əhaliyə hansısa bir xoşbəxtlik gətirməyib. Sərvətləri talanan Qvadelupanın əhalisi bu gün kəskin içməli su qıtlığı problemi yaşayır. Yeri gəlmişkən, bu barədə BTQ-nin təşəbbüsü ilə Bakıda təşkil olunan tədbirlərdə də həyəcan təbili çalınıb. Qvadelupada yerli əhali həmçinin milli dilin sıxışdırılmasına kəskin etirazını bildirir.

Bütövlükdə, Yelisey Sarayının müstəmləkə siyasətinin kədərli təzahürlərinin siyahısı çox uzundur. Jandarm zorakılığı bu siyahıda xüsusi yer tutur. BTQ-nin yaydığı arayışda vurğulanır ki, Qvadelupada “Jardarma Zorakılığına Qarşı Birlik” təşkilatının yaydığı bəyanatda hadisə sərt şəkildə tənqid olunub. Bəyanatda Liber Argelier adlı şəxsin hərbi polis tərəfindən əsassız şəkildə açılan atəş nəticəsində həyatını itirdiyi vurğulanmış və bu hadisə “dövlət zorakılığının növbəti nümunəsi” kimi qiymətləndirilir.

Təşkilat hadisəni əvvəlki oxşar ölüm halları ilə əlaqələndirərək bunun sistematik xarakter daşıdığını iddia edib, eyni zamanda, hüquq-mühafizə orqanlarının vəzifələrindən sui-istifadə etdiyini bildirib.

Bəyanatda, həmçinin ədalətin təmin olunması, təqsirli hesab edilən şəxslərin məsuliyyətə cəlbi və bu kimi halların qarşısının alınması məqsədilə ictimai fəallığa çağırış yer alıb.

***Mübariz FEYİZLİ***

# Danışıqlar: nə vaxt, harada?

ABŞ və İran nümayəndə heyətləri 16 aprel, cümə axşamı günü şəxsən görüşə bilərlər. Associated Press (AP) agentliyinin yazdığına görə, bunu ABŞ rəsmiləri anonimlik şərti ilə bildiriblər. Onların sözlərinə görə, Vaşinqton və Tehran nümayəndələri müvəqqəti atəşkəs müddəti bitməmişdən əvvəl danışıqlar aparmaq niyyətindədirlər. Rəsmilər yeni görüşün təşkili prosesinin davam etdiyini və hər iki tərəfin buna müsbət yanaşdığını qeyd ediblər - lakin danışıqlarda iştirak edən nümayəndə heyətlərinin tərkibində kimlərin olacağı dəqiqləşdirilməyib. Danışıqların yeri də müəmmalıdır. Bu, İslamabad da ola bilər, Oman da, Cenevrə də. Daha çox isə İslamabad və Cenevrə variantları gözdən keçirilir.

Xatırladaq ki, ABŞ-İran danışıqlarının ilk raundu 11 aprel şənbə günü İslamabadda keçirilib və 21 saat davam edib. Görüşdən sonra tərəflərin razılığa gələ bilmədiyi açıqlanıb. Qeyd olunub ki, ABŞ İranın uzunmüddətli nüvə silahı potensialından imtina etmək istəyini görməyib.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp iki gün öncə Ağ Evdə jurnalistlərə bildirib ki, İranla yeni bir razılaşma hələ də mümkündür. "Biz İranla bir çox məsələdə razılığa gəlmişik, lakin nüvə məsələsində yox. Lakin düşünürəm ki, onlar buna razı olacaqlar. Mən buna əminəm. İran nüvə silahına sahib ola bilməz. Əgər onlar bunu qəbul etməsələr, heç bir razılaşma olmayacaq", - deyə Amerika lideri bildirib.

Tramp həmçinin qeyd edib ki, iranlılar özləri əlaqə saxlayır və razılaşma əldə etmək istəyirlər, lakin dəqiq kiminlə danışıqlar apardığını açıqlamayıb.

**Vens: Hazır deyillərsə, bu, onların işidir**

Vitse-prezident C.D.Vens isə "Fox News"a verdiyi müsahibədə bildirib ki, danışıqların davam edib-etməyəcəyi məsələsi "ən yaxşısı iranlıların özlərinə buraxılmalıdır, çünki məsələ həqiqətən onların meydanındadır".

Vens danışıqlardan sonra İranla razılaşma olmadığını deyib. Onun sözlərinə görə, zənginləşdirilmiş uran İrandan çıxarılmalıdır. "Biz onların nüvə silahı istehsal etməmək barədə qətiyyətli öhdəliyini təmin etməliyik. Və düşünürəm ki, əgər iranlılar bu məsələdə bizimlə görüşməyə hazırdırlarsa, bu, hər iki ölkə üçün çox, çox yaxşı bir razılaşma ola bilər. Əgər onlar bizimlə görüşməyə hazır deyillərsə, bu, onların işidir", - deyə ABŞ-ın vitse-prezidenti Fox News-a bildirib.

**Ağ Ev təsdiqləmir...**

Ağ Ev isə yeni danışıqların nəzərdən keçirilib-keçirilməməsi ilə bağlı suala cavab verməyib. Ağ Evin mətbuat katibi Kerolin Livitt bildirib ki, "Prezident Tramp, vitse-prezident Vens və danışıqlar qrupu ABŞ-ın qırmızı xətləri barədə çox açıq şəkildə danışıblar. İranlıların razılaşmaya olan ümidsizliyi Prezident Trampın yüksək effektiv dəniz blokadası tətbiq etməsi ilə daha da artacaq".

The New York Times (NYT) qəzetinin məlumatına görə, Pakistanda keçirilən danışıqlar zamanı ABŞ İrandan uranın zənginləşdirilməsini 20 il müddətinə dayandırmasını tələb edib. 13 apreldə İran tərəfi ABŞ-a rəsmi cavab göndərərək beş ilə qədər dayandırılmasına razılıq verib. Bu barədə NYT-yə iki yüksək vəzifəli İran rəsmisi və bir ABŞ rəsmisi məlumat verib. Bundan əlavə, adı açıqlanmayan ABŞ rəsmisi NYT-yə bildirib ki, ABŞ İrandan yüksək dərəcədə zənginləşdirilmiş uranı ölkədən çıxarmasını istəyib. İran öz növbəsində uranın ölkə daxilində qalmasında israr edir. Eyni zamanda, İran nümayəndələri uranın yararsız hala düşürülməsi və nüvə silahı üçün istifadə edilməməsi üçün əhəmiyyətli dərəcədə durulaşdırmağı təklif ediblər.

**Dəniz blokadasının sirri...**

ABŞ prezidenti Donald Tramp İran ətrafında tətbiq edilən dəniz blokadasının əsas hədəflərindən birinin də məhz Tehranın yenidən danışıqlar masasına qayıtmasına məcbur etmək olduğunu bildirib. Trampın sözlərinə görə, Vaşinqton bu addımı yalnız hərbi-strateji məqsədlərlə deyil, həm də diplomatik təzyiq aləti kimi qiymətləndirir. ABŞ lideri vurğulayıb ki, blokada İranı kompromisə məcbur etmək üçün nəzərdə tutulub.

O əlavə edib ki, bu prosesdə Vaşinqton tək deyil. Onun sözlərinə görə, bəzi müttəfiq və tərəfdaş ölkələr də İrana qarşı dəniz blokadasında iştirak edəcək. Tramp həmin dövlətlərin adlarının yaxın vaxtlarda açıqlanacağını da qeyd edib.

**İrandan çağırış**

İRNA isə son İran-Amerika danışıqlarından sonra məsləhətləşmələrin davam etdiyini, lakin növbəti mərhələdəki görüşün tarixinin hələ müəyyən edilmədiyini yayıb. Mənbəyə görə, Tehran və İslamabad mesaj mübadiləsini davam etdirirlər, lakin İran və ABŞ arasında növbəti məsləhətləşmələrin tarixi və yeri barədə razılıq yoxdur.

İran Prezidenti Məsud Pezeşkian isə bildirib ki, İran ABŞ ilə danışıqlara hazırdır, amma "qanun çərçivəsində". Pezeşkian fransalı həmkarı Emmanuel Makronla telefon danışığı zamanı deyib ki, "İran İslam Respublikası diplomatiyanı mübahisələrin həlli üçün ən üstün yol hesab edir və milli ləyaqətini və nüfuzunu qoruyub saxlayaraq, qanun çərçivəsində danışıqlara hazır olduğunu bəyan edir".

Bununla belə İranda danışıqlara münasibət birmənalı deyil. İran parlamentinin üzvü İbrahim Rezainin sözlərinə görə, amerikalılar hərbi əməliyyatlardakı mövcud fasilədən ordunu yenidən silahlandırmaq və qoşunlarına istirahət etmək üçün vaxt əldə edə bilərlər. Onun fikrincə, Tehran və Vaşinqton razılığa gələ bilməsələr, İran iki həftədən sonra ABŞ ilə atəşkəs müddətini uzatmamalıdır. "Atəşkəsin bitməsi onun uzadılmasına səbəb olmamalıdır. Ya Hörmüz boğazı üzərində nəzarətimiz də daxil olmaqla, İranın hüquqları tanınmalıdır, ya da müharibəyə qayıtmalıyıq", - deyə o, "X"-da yazıb. Millət vəkilinin sözlərinə görə, ABŞ hərbi əməliyyatlardakı yaranan fasilədən ordunu yenidən silahlandırmaq və qoşunlarını istirahət etdirmək üçün istifadə edə bilər.

**Qırmızı Xaç humanitar yardım göndərib**




Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) İrana 171 ton zəruri ləvazimat göndərib. Təşkilatın mətbuat xidmətinin məlumatına görə, ilk 5 yük maşını 13 apreldə çatıb. BQXK-nın məlumatına görə, təşkilat təxminən 25 min insanın ehtiyaclarını ödəmək üçün İordaniyadakı anbarından zəruri ləvazimatlarla dolu 14 yük maşını göndərib. BQXK bildirib ki, "yüklərə yorğanlar, jerriklər, mətbəx dəstləri, brezentlər, gigiyena dəstləri, günəş enerjisi ilə işləyən lampalar, vedrələr və döşəklər daxildir".

Qeyd olunur ki, bu, "BQXK-nın İrana ilk çatdırılması və 6 həftə ərzində ölkəyə ilk sərhədyanı humanitar yardım çatdırılmalarından biridir". Qalan 9 yük maşınının bu həftənin sonlarında İrana çatması planlaşdırılır.

**Razılıq əldə olunmasa...**

Beləliklə, gələn həftə - 21 apreldə münaqişə tərəfləri tərəfindən 7 apreldə elan edilən 2 həftəlik atəşkəs müddəti başa çatır. "Axios" mənbələrinə görə, ABŞ-ın dəniz blokadası İranı kursunu dəyişməyə məcbur etməsə, Tramp İrana hücumları bərpa etməyi düşünür. "The Wall Street Journal" (WSJ) mənbələrə istinadən bildirib ki, Tramp danışıqların uğursuzluğu fonunda İrana məhdud hücumları bərpa etməyi düşünür. Nəşrin mənbələri regionun daha da qeyri-sabitləşməsi və Trampın uzunmüddətli hərbi münaqişələrə qarışmaqdan çəkinməsi perspektivini nəzərə alaraq, tammiqyaslı bombardman kampaniyasının bərpasını daha az ehtimal olunan ssenari kimi təsvir ediblər.

**Müharibə bitdi?**

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp İrana qarşı hərbi əməliyyatın artıq başa çatdığını bəyan edib. Bu barədə "Fox News" telekanalının jurnalisti Mariya Bartiromo ABŞ lideri ilə müsahibəsinin nəticələrinə əsasən məlumat verib. Jurnalistin sözlərinə görə, Tramp İrana qarşı hərbi fəaliyyətlərdən keçmiş zamanda danışıb. Bu isə əməliyyatın bitib-bitmədiyi ilə bağlı sual doğurub. "Bu başa çatdı", - deyə Bartiromo Trampın sözlərini sitat gətirib.

Qeyd edək ki, daha əvvəl ABŞ-ın vitse-prezidenti Cey Di Vens də Vaşinqtonun İranda qarşıya qoyduğu məqsədlərə nail olduğunu və hərbi əməliyyatların mərhələli şəkildə dayandırıla biləcəyini açıqlamışdı.

**P.İSMAYILOV**

# Yaxın Şərqdə daha bir atəşkəs...



## Livan ilə İsrail uzun illərdən sonra danışıqlar masasında

Aprelin 14-də ABŞ-ın vasitəçiliyi ilə Livan ilə İsrail arasında danışıqlar keçirilib. Uzun onilliklərdən bəri İsrail və Livan arasında ilk birbaşa danışıqlar kimi tarixə düşən görüş Vaşinqtonda baş tutub. Görüşdə nümayəndə heyətlərinə Livanın ABŞ-dakı səfiri Nada Hammadi-Muəvvəd və İsrailin ABŞ-dakı səfiri Yexiel Leyter rəhbərlik edib. ABŞ-ı isə Dövlət katibi Marko Rubio, ABŞ-ın Livandakı səfiri Mişel İssa, ABŞ-ın BMT-dəki xüsusi elçisi Mayk Valts və Dövlət Departamentinin müşaviri Maykl Nidhem təmsil edib. Qeyd edək ki, danışıqlardan öncə siyasi ekspertlər çox yüksək gözləntilərin olmadığı qənaətində idilər. Jurnalistlərin suallarına cavab verən ABŞ Dövlət katibi Marko Rubio görüşün məqsədinin İsrail və Livan arasında gələcək sülh müqaviləsi üçün çərçivəni müəyyən etmək olduğunu bildirmişdi. Ekspertlər qeyd edirdilər ki, bu görüş Beyrut üçün daha vacib xarakter daşıyır - Livan atəşkəsə nail olmaq üçün İsraillə ən yüksək səviyyədə qarşılıqlı əlaqə vasitəsi axtarırdı. İsrail üçün isə danışıqların əsas şərti radikal Hizbullahın tam tərksilah edilməsidir - lakin rəsmi Təl-Əviv Livan hökumətinin İsrail Müdafiə Qüvvələrinin hərbi müdaxiləsi olmadan bu məqsədə çatacağına şübhə ilə yanaşır. Rəsmi Beyrut dəfələrlə Hizbullahın tərksilah edilməsinə sadiq olduğunu açıq şəkildə bildirib, çünki qrup ölkəni daim İsrail ilə hərbi münaqişələrə cəlb edir. Lakin İsrail qeyd edir ki, Livan hökuməti 2006-cı il BMT Təhlükəsizlik Şurasının qətnaməsinə baxmayaraq, qrupu cənub sərhədlərindən çəkilməyə məcbur edə bilməyib. Danışıqlarda vasitəçilik edən ABŞ Dövlət Departamenti də İsrailin Livanla deyil, Hizbullahla mübarizə apardığını vurğulayıb və buna görə də Vaşinqtondakı görüş qarşı tərəflərin deyil, ortaq bir problemin həllini tapmalı olan qonşuların görüşü adlandırılıb.

**Bu, başlanğıcdır...**

Marko Rubio açıqlamasında qeyd edib ki, "Bu, bir prosesdir, bir hadisə deyil. Bu, bir günlə məhdudlaşmır. Bu, vaxt aparacaq, amma biz inanırıq ki, bu səylərə dəyər və bu, gələcəyi qurmaq niyyətində olduğumuz tarixi bir görüşdür". Onun sözlərinə görə, söhbət sadəcə atəşkəsdən getmir - müzakirə olunası predmetlər daha çoxdur. O, jurnalistlərə bildirib ki, "Söhbət Hizbullahın dünyanın bu hissəsində 20-30 illik təsirinə son qoymaqdan gedir - təkcə İsrailə vurduğu ziyana deyil, həm də Livan xalqının özünə vurduğu ziyana son qoymaqdan gedir". Xatırladaq ki, görüşün ilk dəqiqələrində İsrailin şimalı Hizbullahın raket atəşinə tutulub.

**Hər iki dövlət eyni tərəfdədir**

Görüşün nəticələri ilə bağlı fikirlərini bölüşən İsrailin ABŞ-dakı səfiri Yexiel Leyterin sözlərinə görə, iki saatlıq görüşün əsas nəticəsi tərəflər arasında Livanın Hizbullahdan azad edilməsinin vacibliyi barədə razılığa gəlmək olub. "Bu gün biz tənliyin eyni tərəfində olduğumuzu aşkar etdik və bu, əldə edə biləcəyimiz ən müsbət nəticədir".

Leyterin sözlərinə görə. "Livanı İranın nəzarətində olan Hizbullah adlı işğalçı qüvvədən azad etmək istəyimizdə birik". O, ABŞ-ın vasitəçiliyi ilə aparılan danışıqları ölkələr arasında sərhədin aydın şəkildə müəyyən edilməsi üçün uzunmüddətli bir vizyon adlandırıb. İsrailli diplomat Livan hökumətini Hizbullahın danışıqlardan çıxmaq çağırışlarına məhəl qoymamasını yüksək qiymətləndirib. Xatırladaq ki, Hizbullah bir gün əvvəl Livan hakimiyyətindən görüşü ləğv etməsini tələb etmiş və onu mənasız adlandırmışdı.

"Livan hökuməti artıq Hizbullahın onu işğal etməsinə icazə verməyəcəyini açıq şəkildə bildirib", - Leyter əlavə edib. Qeyd edək ki, yeni görüşlədə bağlı razılıq əldə edilməyib - lakin danışıqlar komandaları qeyd ediblər ki, tərəflər müzakirə olunan təklifləri paytaxtlarına çatdıracaqlar və dialoq yaxın həftələrdə Vaşinqtonda bərpa oluna bilər. İsrail səfiri bildirib ki, hazırlanan razılaşma həm təhlükəsizlik, həm də mülki məsələləri əhatə edəcək: "Sülh müqaviləsi bağlaya və İbrahim Sazişləri ölkələri ilə olan münasibətlərimizə bənzər ahəngdar münasibətlər qura bilək".

**"Livan xalqının əzablarının sonunun başlanğıcı"**

Livan prezidenti Cozef Aun Vaşinqtondakı görüşü Livan xalqının və xüsusən də cənubda yaşayan vətəndaşların əzablarının sonunun başlanğıcı kimi qiymətləndirib. O, bu açıqlamanı Beyrutda İtaliya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Lusiano Portolano ilə görüşündə verib. "Yeganə həll yolu Livan ordusunu beynəlxalq səviyyədə tanınmış sərhədlərə köçürməkdir ki, bu da ona heç bir digər qüvvənin iştirakı olmadan regionun təhlükəsizliyi və sakinlərinin qorunması üçün məsul olan yeganə qüvvəyə çevrilməyə imkan verəcək", - deyə Aun, ehtimal ki, İran və Hizbullaha istinad edərək bildirib.

Qeyd edək ki, Aun dəfələrlə İsraillə dialoqa hazır olduğunu bildirib.

**Livanlılar sabitlik istəyir...**

Livanın iqtisadiyyat və ticarət naziri Amer Bisat isə "Euronews"a bildirib ki, ölkə müharibələrdən bezib və onilliklər ərzində ilk birbaşa danışıqlar zamanı İsraillə sülh axtarır. Bisat bildirib ki, Livan üçün danışıqların əsas məqsədləri döyüşlərə və zorakılığa son qoymaqdır: "Livan həm ölən və yaralananların sayı, həm də insanların evlərindən kütləvi şəkildə köçməsi baxımından son dərəcə yüksək bir "qiymət" ödəyib və ödəməyə də davam edir. Mən həqiqətən inanıram ki, livanlılar sülh istəyirlər, həqiqətən inanıram ki, livanlılar rifah istəyirlər, istisnasız olaraq hər kəs sabitlik istəyir. Düşünürəm ki, hamımız müharibələrdən, qeyri-sabitlikdən, zorakılıqdan bezdiyimiz bir nöqtədəyik".

Qeyd edək ki, Hizbullah Livan - İsrail görüşünün nəticəsindən asılı olmayaraq silahlarını yerə qoymaq niyyətində olmadığını bildirib. Bisat isə deyib ki, silahlı qrupa silahlarını yerə qoymaq üçün ictimai təzyiq göstəriləcək: "Hazırda biz heç kimin ölkə daxilində zorakılıq istəmədiyinə dair milli konsensusa ümid edirik".

Bisat qeyd edib ki, Vaşinqtonda aparılan hazırkı danışıqlar mərhələsi yalnız başlanğıcdır: "Hazırda biz təməli qoyuruq. Uzunmüddətli perspektivdə daha geniş formata və daha uzun bir prosesə ehtiyac olacaq. Amma bu, yalnız başlanğıcdır. Və yenə də: tələbimiz, bu mərhələdəki xahişimiz düşmənçilik hərəkətlərinin dayandırılmasıdır."

**Məqsəd nəsillər boyu davam edəcək sülhdür**

İsrailin Baş naziri Benyamin Netanyahu danışıqların məqsədinin Livanla "nəsillər boyu davam edəcək tarixi və davamlı sülh müqaviləsi" olduğunu bildirib. İsrail xarici işlər naziri isə deyib ki, danışıqlar aparan tərəflər "növbəti mərhələyə - sülh və Livan dövləti ilə münasibətlərin normallaşdırılmasına" keçmək üçün Hizbullahın aradan qaldırılmasında əməkdaşlığı müzakirə edəcəklər.

Xatırladaq ki, xarici media Livan danışıqları üçün ilkin şərt kimi atəşkəs elan ediləcəyini vurğulayıb. Bu danışıqlar Hizbullahın tərksilah edilməsi müqabilində İsrail qoşunlarının Livan ərazisindən çıxarılması məsələsinə yönələcək. Yeganə həll yolu Livan ordusunu beynəlxalq səviyyədə tanınmış sərhədlərə köçürmək və onu regionun və sakinlərin təhlükəsizliyinə cavabdeh olan yeganə tərəfə çevirməkdir.

**Beynəlxalq aləm alqışlayır**

Danışıqlardan sonra bir neçə Avropa ölkəsinin, eləcə də Avstraliyanın xarici işlər naziri Livanda atəşkəs elan edilməsinə çağıran birgə bəyanat yayıblar. Bəyanatda deyilir ki, rəsmilər "Livanın regional gərginliyin azaldılması səylərinə daxil edilməsinə" çağırış ediblər "bütün tərəfləri davamlı siyasi həll yolu tapmağa" səsləyiblər. Avstraliya, Belçika, Xorvatiya, Kipr, Danimarka, Finlandiya, Fransa, Yunanıstan, İslandiya, Lüksemburq, Malta, Niderland, Norveç, Portuqaliya, Sloveniya, İspaniya, İsveç və Birləşmiş Krallığın xarici işlər nazirləri bəyanata qoşulublar.

Bəyanatda Livandakı mövcud münaqişənin İsrail, ABŞ və İranın ötən həftə razılaşdırdığı atəşkəsi təhdid etdiyi bildirilir, eləcə də İsrail və Livan "bu fürsətdən istifadə etməyə" dəvət olunurlar.

**P.İSMAYILOV**

# Arxadan vurulan "zərbə"...

## Avropa ABŞ-ı niyə, neçəyə və kimə satdı?

Son dövrlərdə böyük güclər arasında yaranan bir sıra fikir ayrılıqları, mövqe fərqliliyi artıq klassik müttəfiqlik anlayışını geri plana atıb - hazırda münasibətlər sistemi daha çox qarşılıqlı maraqların dinamik balansı üzərində qurulub. Bu sistemdə dövlətlər arasındakı tərəfdaşlıq sabit və dəyişməz deyil, əksinə, konkret situasiyalara uyğun şəkildə formalaşır və tez-tez transformasiyaya uğrayır. Bunun ən bariz nümunəsi eyni siyasi və müəyyən mənada, iqtisadi blokda təmsil olunan güc mərkəzlərinin bir çox hallarda eyni məsələyə fərqli yanaşma sərgiləməsidir. Xüsusilə Avropa ilə ABŞ arasındakı münasibətlər bu baxımdan diqqət çəkir. Hər nə qədər bu iki güc mərkəzi strateji müttəfiq hesab olunsa da, onların arasında Yaxın Şərqdəki münaqişələr, Qrenlandiya məsələsi, ticarət rüsumları və enerji siyasəti kimi mövzularda ciddi fikir ayrılıqları mövcuddur.

ABŞ-da Donald Trampın yenidən hakimiyyətə qayıdışı bu ziddiyyətləri daha da dərinləşdirib. Onun xarici siyasətdə daha sərt, daha çox milli maraqlara fokuslanan yanaşması Avropa ilə koordinasiyanı zəiflədib. Nəticədə Rusiya-Ukrayna müharibəsi, NATO-nun gələcəyi və enerji təhlükəsizliyi kimi həyati məsələlərdə tərəflər arasında əvvəlki vahid mövqe artıq müşahidə olunmur. Qrenlandiya ilə bağlı səslənən fikirlər isə iki tərəf arasında münasibətlərə "soyuq duş" effekti verib.

**3 mərhələli plan: ABŞ bu planın heç bir yerində deyil...**

Yaxın Şərqdə, xüsusilə Hörmüz boğazı ətrafında baş verən hadisələr isə bu fikir ayrılıqlarını daha da kəskinləşdirərək demək olar ki, strateji "yol ayrılığı" səviyyəsinə çatdırır. Enerji resurslarının qlobal dövriyyəsində kritik rol oynayan bu region ətrafında yaranan gərginlik həm iqtisadi, həm də geosiyasi baxımdan ABŞ və Avropa arasında fərqli prioritetləri üzə çıxarır.

Rəsmi Parisin aprelin 17-də Hörmüz boğazında naviqasiya azadlığının bərpasına yönəlmiş konfransa ev sahibliyi edəcəyi ilə bağlı məsələ bu fikir ayrılığının nə qədər ciddi olduğunu göstərir. Yelisey sarayı Fransa Prezidenti Emmanuel Makron və Böyük Britaniyanın Baş naziri Kir Starmerin konfransa həmsədrlik edəcəklərini bildirib. Qeyd olunub ki, tədbirdə Hörmüz boğazında naviqasiya azadlığının bərpasına yönəlmiş çoxmillətli və sırf müdafiə missiyasına töhfə verməyə hazır olan müharibə etməyən ölkələr bir araya gələcək.

Bu konfransın "özəlliyi" isə ABŞ-ın prosesdə iştirakının olmamasıdır - Avropa ABŞ-ın iştirakı olmadan Hörmüz boğazını azad etmək üçün koalisiya qurur. Makron bunun "müdafiə missiyası" olduğunu deyir - The Wall Street Journal (WSJ) mənbələrə istinadən xəbər verir ki, Avropa ölkələri ABŞ-ın iştirakı olmadan hərbi əməliyyatlar bitdikdən sonra Hörmüz boğazından gəmiçiliyi bərpa etmək üçün beynəlxalq missiya planı hazırlayır. Təşəbbüs sulardakı minaları təmizləyəcək və gəmiçiliyin təhlükəsizliyini təmin edəcək geniş ölkələr koalisiyasının yaradılmasını nəzərdə tutur. Missiyanın məqsədi gəmiçilik şirkətlərinin etimadını bərpa etmək və vaxtı hələ də qeyri-müəyyən olan münaqişə bitdikdən sonra boğazdan tranzitin bərpasını təmin etməkdir. Fransa bildirir ki, Avropa qüvvələri Amerika komandanlığı altında olmayacaq. Nəşrin məlumatına görə, plan 3 mərhələdən ibarətdir:

- Batmış gəmilərin çıxarılması;
- Boğazın təmizlənməsi;
- Tankerlərin təhlükəsizliyini təmin etmək üçün onlara hərbi müşayiətin təmin edilməsi.

Daha bir maraqlı məqam, Almaniyanın da missiyaya qoşulma ehtimalıdır - Berlin Vaşinqtonun Avropadakı dayaq nöqtəsi sayılsa da, yaxın günlərdə mövqeyini açıqlayacağını bildirib. Beləliklə, həftə sonunda Fransa və Birləşmiş Krallıq bu missiyanın parametrlərini müzakirə etmək üçün bir neçə ölkə ilə onlayn görüş keçirəcək. Bütün bunlar isə bir daha təsdiqləyir ki, beynəlxalq sistem yeni güc balansı mərhələsinə daxil olur və ənənəvi müttəfiqlik münasibətləri yenidən nəzərdən keçirilir.

**Avropa daha da "soyuyub": qaz böhranından sonra, benzin şoku...**

Avropanın Hörmüz boğazı ilə bağlı mövqeyinin ABŞ-dan fərqlənməsinin və ya ABŞ-sız çıxış yolu axtarışının arxasında bir sıra ciddi geosiyasi və iqtisadi səbəblər dayanır. Bu fikir fərqliliyinin kökləri isə hələ Rusiya-Ukrayna müharibəsinin ilk mərhələlərinə gedib çıxır. Həmin dövrdə Rusiya tərəfindən Avropaya qaz axınının kəskin şəkildə azaldılması "qoca qitə"ni ciddi enerji böhranı ilə üz-üzə qoydu. ABŞ isə bu boşluğu tam şəkildə doldura bilmədi və təklif etdiyi alternativlər həm qiymət, həm də logistik baxımdan Avropa üçün tam uyğun olmadı. Nəticədə, Avropanın bəzi ölkələri fərdi şəkildə çıxış yolları axtarmağa məcbur qaldı. Məsələn, Macarıstan və Slovakiya kimi dövlətlər Rusiyadan qaz idxalını davam etdirməklə daha praqmatik siyasət yürütməyə üstünlük verdilər. Bu qərarlar o zaman tənqid olunsa da, bugünkü reallıq fonunda daha rasional addım kimi qiymətləndirilə bilər.

Hazırkı vəziyyətdə isə Hörmüz boğazının mümkün blokadası qlobal enerji bazarına birbaşa təsir edir. Neft qiymətlərinin artması Avropa iqtisadiyyatı üçün ciddi risklər yaradır. ABŞ prezidenti tərəfindən benzinin qiymətinin kəskin bahalaşacağı ilə bağlı səsləndirilən proqnozlar isə Avropada əlavə narahatlıq doğurur. Çünki Avropa artıq enerji böhranının nəticələrini yaşamış bir regiondur və yeni şoklara qarşı daha həssasdır.

Bu səbəbdən Avropa ölkələri Hörmüz məsələsinə ABŞ-dan fərqli yanaşaraq problemi alternativ diplomatik və iqtisadi yollarla həll etməyə çalışır. Xüsusilə ABŞ-ın iştirakı olmadan regional və ya çoxtərəfli mexanizmlər vasitəsilə gərginliyin azaldılması ideyası ön plana çıxır. Bu yanaşma həm enerji təhlükəsizliyini qorumaq, həm də ABŞ-dan asılılığı azaltmaq məqsədi daşıyır.

**NATO "yarası": ABŞ nə gözləyirdi, amma nə oldu...**

ABŞ-ın davranışının da altında özünün arqumentləri yatır. Belə ki, ABŞ-ın Avropadan əsas gözləntilərindən biri Yaxın Şərqdəki hərbi-siyasi proseslərdə onun yanında yer alması idi. Xüsusilə Vaşinqton mart ayının əvvəlində bu gözləntiləri dolayısı ilə ifadə etmişdi. Lakin hadisələrin inkişafı göstərdi ki, Avropa bu məsələdə ABŞ-la tam həmrəylik nümayiş etdirməyə hazır deyil. Bir sıra Avropa ölkələri, o cümlədən İspaniya və İtaliya, ABŞ və İsrailin İrana qarşı mümkün hərbi addımlarını açıq şəkildə tənqid etdilər. Bu isə Transatlantik münasibətlərdə ciddi çatların yaranmasına səbəb oldu. Avropanın bu mövqeyi təkcə humanitar və ya hüquqi arqumentlərlə izah olunmur. Burada daha dərin siyasi motivlər də mövcuddur.

Analitiklər hesab edirlər ki, Avropa bu situasiyanı öz mövqeyini gücləndirmək üçün bir fürsət kimi qiymətləndirir. İran məsələsində fərqli mövqe sərgiləməklə, əslində, ABŞ-la digər sahələrdə, xüsusilə Qrenlandiya məsələsində mövcud narazılıqlarını dolayı yolla ifadə edir. Bu, diplomatik müstəvidə bir növ "mesaj siyasəti" kimi də dəyərləndirilə bilər.

Eyni zamanda, bu vəziyyət ABŞ-ın NATO-ya münasibətinə də təsirsiz ötüşmür. Onsuz da alyansa skeptik yanaşan Tramp administrasiyası üçün Avropanın bu cür müstəqil davranışı əlavə arqument rolunu oynayır. Gələcəkdə ABŞ-ın NATO çərçivəsində öhdəliklərini azaltması və ya yeni təhlükəsizlik formatları axtarması ehtimalı da bu kontekstdə artır. Təsadüfi deyil ki, Donald Tramp açıq şəkildə bildirib ki, alyans ilə münasibətlər heç də axarında deyil. O, "Truth Social" platformasında paylaşımında NATO müttəfiqlərinin ABŞ-a yardım göstərmədiyini və gələcəkdə də etməyəcəyini bildirib. "NATO bizimlə olmayıb və gələcəkdə də olmayacaq", - deyə Amerika lideri vurğulayıb. Bu isə güc mərkəzləri arasındakı çəkişmənin əsas səbəbi kimi də göstərilə bilər.



**Fransa - İran münasibətləri: "kölgədə" izlər görünmür...**

Burada daha çox diqqəti cəlb edən Fransanın "canfəşanlığıdır". Məsələn, Böyük Britaniya həftə sonu keçiriləcək konfransda ABŞ-ın iştirakını zəruri sayıb - amma Paris birmənalı şəkildə buna qarşı çıxıb. Siyasi təhlilçilərin fikrincə, burada İran-Fransa münasibətləri də əsaslı rol oynayır. Başqa sözlə, Fransanın İranla bağlı mövqeyinin ABŞ-dan fərqli inkişaf etməsi tarixi və iqtisadi amillərlə də sıx bağlıdır. Sirr deyil ki, uzun illər ərzində Fransa ilə İran arasında formalaşmış münasibətlər Qərb-İran əlaqələrindən qismən kənarda inkişaf edib. O da təsadüfi deyil ki, münaqişə başlayandan bəri Fransanın davranışlarını izləyən beynəlxalq media ekspertləri tez-tez Fransanın İranla "tarixi əlaqələrinə" istinad edir, yaddaşı təzələyir. Onlar Fransanın vaxtilə İrandakı İslam inqilabı dövründə müəyyən dolayı dəstəyini ön plana çıxarıb.

Bu münasibətlərin iqtisadi əsasları da mövcuddur - məsələn, İran avtomobil sənayesinin formalaşmasında Fransa şirkətlərinin mühüm rolu olub. İranda istehsal olunan bir çox avtomobil modelləri məhz fransız texnologiyaları və platformaları əsasında yaradılıb. Fransanın "Peugeot" (Pejo) avtomobil şirkəti ilə İran arasındakı münasibətlər uzun illərə söykənən və həm siyasi, həm də iqtisadi əməkdaşlıq nümunəsidir. "Peugeot" ilə İran arasındakı əməkdaşlıq əsasən 1980-1990-cı illərdən etibarən aktiv mərhələyə keçib. Bu dövrdə İranın ən böyük avtomobil istehsalçılarından biri olan "Iran Khodro" ilə tərəfdaşlıq qurulub. "Peugeot" modelləri İran bazarında geniş yayılmağa başlayıb və yerli istehsal xəttinə uyğunlaşdırılıb.

"Peugeot" yalnız 2012-ci ildə - ABŞ və Avropa İttifaqının sanksiyalarını sərtləşdirməsindən sonra İranla əməkdaşlığı dayandırmaq məcburiyyətində qalıb. 2015-ci ildən sonra şirkət yenidən İrana qayıdıb.

Bu fakt iki ölkə arasında sənaye əməkdaşlığının səviyyəsini göstərir. Bu kontekstdə Avropanın, xüsusilə Fransanın İranla bağlı daha mülayim və balanslı mövqe sərgiləməsi təəccüblü deyil. Hətta bəzi müşahidəçilər Fransa ilə İranın müəyyən regional məsələlərdə oxşar mövqe nümayiş etdirməsini də bu tarixi əlaqələrlə izah edirlər - maraqlıdır ki, burada Azərbaycan ilə Ermənistan arasındakı ikinci Qarabağ müharibəsindən sonrakı mərhələdə də sərgilənən oxşar mövqeyə toxunulur.

**Çin amili - Qərb Şərqə doğru "yol alıb"...**

Digər əsas amillərdən biri isə ABŞ-ın hazırda qlobal siyasətdə və iqtisadiyyatda əsas rəqibi olan Çinlə bağlıdır. Siyasi şərhçilər Avropanın ABŞ-dan müəyyən mənada uzaqlaşaraq fərqli mövqe sərgiləməsini qlobal geosiyasi rəqabətlə də bağlayırlar. Sirr deyil ki, ABŞ ilə Çin arasında gedən siyasi-iqtisadi mübarizə bu proseslərin əsas fonunu təşkil edir. Vaşinqtonun Yaxın Şərqə can atması Avrasiyada yeni iqtisadi və logistika konfiqurasiyası yaradaraq Çinin təsirini azaltmağa hədəflənmiş kimi də bildirilir. Hörmüz boğazı ətrafında baş verən hadisələr də bu rəqabətin tərkib hissəsi kimi qiymətləndirilir. Məsələn, blokadanı yararaq keçən gəminin Çinlə əlaqəli olması təsadüfi hesab edilmir. Bu, Çinin regiondakı maraqlarının və imkanlarının göstəricisi kimi şərh olunur.

Avropa isə bu rəqabətdə öz mövqeyini müəyyənləşdirmək mərhələsindədir. Son illərdə Avropa liderlərinin Çinə səfərlərinin intensivləşməsi təsadüfi deyil. Bu səfərlər iqtisadi əməkdaşlığı genişləndirmək və yeni bazarlar əldə etmək məqsədi daşıyırdı.

Hazırkı şəraitdə isə Avropanın müəyyən dərəcədə Çinlə əməkdaşlığa daha açıq olması müşahidə olunur. Bu, bir tərəfdən iqtisadi maraqlarla izah olunur, digər tərəfdən isə ABŞ-dan asılılığı azaltmaq cəhdi kimi qiymətləndirilir. Qeyd edək ki, 2024-2026-cı illərdə Çin və Avropa Birliyi arasında iqtisadi dövriyyə yüksək rəqəmlərlə ölçülür. Çin Aİ üçün əsas tərəfdaş qismində çıxış edir. 2026-cı ilin əvvəlinə dövriyyə kəskin şəkildə artaraq birinci rübdə 212,4 milyard dollara çatıb. Bu rəqəm ticarət dövriyyəsinin ötən dövrdəki müvafiq dövrü ilə müqayisədə 17,6 faiz artım deməkdir. Çinin Aİ-yə ixracı 21,1 faiz, Aİ-dən idxalı isə 10,5 faiz artıb. Hörmüz məsələsində ABŞ-sız koalisiya ideyasının gündəmə gəlməsi də bu strategiyanın tərkib hissəsi kimi görünür.

**Qisas "qiyamət"ə qalmadı....**

Bir sıra siyasi təhlilçilər ABŞ ilə Avropa arasındakı fikir ayrılıqlarında müəyyən "qisas elementləri"nin də olduğunu iddia edirlər. Son illərdə ABŞ-ın müxtəlif regionlarda apardığı siyasətdə Avropanın maraqlarının kifayət qədər nəzərə alınmaması bu narazılıqları artırıb. Xüsusilə Tramp administrasiyası dövründə ABŞ-ın qlobal məsələlərdə daha çox təkbaşına hərəkət etməsi Avropanı proseslərdən kənarda qoyub. Rusiya-Ukrayna müharibəsinin nizamlanması ilə bağlı danışıqlarda belə Avropanın rolunun məhdudlaşdırılması "qoca qitə"də ciddi narazılıq yaradıb - hətta son danışıqların birində ABŞ Avropa nümayəndələrini olduqca nəzakətlə "qovmuşdu". Avropa bu müharibənin iqtisadi və sosial təsirlərini birbaşa yaşayan tərəf kimi bu danışıqlarda iştirakı təbii haqqı sayır. Enerji böhranı, inflyasiya və sənaye sektorunda problemlər Avropa ölkələrinə daha çox ciddi təsir göstərib. Buna baxmayaraq, ABŞ-ın prosesi öz nəzarətinə götürməsi və qərarları əsasən təkbaşına verməsi Avropa tərəfindən ədalətsiz hesab olunur.

Bundan əlavə, ABŞ-ın bəzi ölkələrlə yeraltı sərvətlərin işlənməsi ilə bağlı müqavilələrdə Avropanı kənarda saxlaması da narazılığı artırır. Bu, Avropada belə bir fikir formalaşdırır ki, ABŞ strateji müttəfiqlik prinsiplərinə tam riayət etmir. Hörmüzlə bağlı mövqe isə göstərir ki, Avropa qlobal iqtisadi və siyasi proseslərdə daha çox pay almağa çalışır. Başqa sözlə, yeni dünya düzənində yenidən masada söz sahibi olmaq və resurs bölgüsündə iştirak etmək istəyir.

**Avropa ikinci planda qalmaq istəmir...**

Ümumilikdə, Avropa hazırda özünü yenidən müstəqil güc mərkəzi kimi təsdiqləməyə çalışır. Bu proses ABŞ-ın kölgəsindən çıxmaq və daha balanslı münasibətlər qurmaq istəyi ilə müşayiət olunur. Avropa artıq təkcə ABŞ-ın tərəfdaşı deyil, eyni zamanda onunla bərabərhüquqlu oyunçu olmaq niyyətindədir.

Mövcud münasibətlər sistemi isə hələ də müəyyən mənada ABŞ-ın dominantlığı ilə xarakterizə olunur. Qlobal münaqişələrin həllində əsas söz sahibi kimi çıxış edən Vaşinqton digər tərəfdaşları çox vaxt ikinci planda saxlayır. Bu isə Avropada narazılıq yaradır - nəticədə bəzi "separat" addımların atılması da qaçılmaz sayılır. Avropa dövlətləri hesab edir ki, beynəlxalq mübahisələrin həllindən əldə olunan siyasi və iqtisadi dividendlərdə onların da payı olmalıdır. Onlar qərarların qəbulunda daha aktiv iştirak etmək və nəticələrdən faydalanmaq istəyirlər. Başqa sözlə, Avropa ABŞ-ın başda oturduğu masada yan tərəfdə oturmaq istəmir - ya ABŞ da gəlib Avropa ilə yan-yana oturmalıdır, ya da Avropa da başa keçməlidir. Bu proses həm də qlobal güc balansının dəyişməsinin göstəricisidir.

**Ya "daşlar yerinə oturacaq", ya da ABŞ Avropanı yerinə oturdacaq...**

Beləliklə, Yaxın Şərq prosesi ABŞ ilə Avropa arasındakı münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu bütün detalları ilə ortaya qoydu:

- Ənənəvi müttəfiqlik modeli artıq əvvəlki kimi effektiv deyil;
- Tərəflər arasında maraq fərqləri getdikcə daha açıq şəkildə ortaya çıxır;
- Enerji təhlükəsizliyi, Yaxın Şərq siyasəti, Çinlə münasibətlər və qlobal iqtisadi proseslər kimi məsələlər bu fərqlərin əsas istiqamətlərini təşkil edir.

Əgər bu fikir ayrılıqları dərinləşməkdə davam edərsə, bu, təkcə Transatlantik münasibətlərə deyil, ümumilikdə qlobal siyasi sistemə təsir göstərəcək. Yeni ittifaqların yaranması, mövcud blokların zəifləməsi və güc mərkəzlərinin yenidən formalaşması ehtimalı artır.

Bu baxımdan, hazırkı proseslər sadəcə, regional gərginliklərin nəticəsi kimi deyil, eyni zamanda, yeni dünya düzəninin formalaşması kimi də izah olunmalıdır. ABŞ və Avropa arasındakı münasibətlərin hansı istiqamətdə inkişaf edəcəyi isə yaxın illərdə beynəlxalq siyasətin əsas müəyyənedici faktorlarından biri olacaq - ən azından, 17 apreldən sonra "daşlar yerinə oturacaq" və ya ABŞ Avropanı yerində oturdacaq...

*Pərviz SADAYOĞLU*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Daxili dünyamızı eşitdirən “dil”...




## Niyə hamının səsi fərqlidir?

Hər bir insanın səsi sanki onun daxili dünyasının aynasıdır. Eyni sözləri desək belə, fərqli səslərlə həmin sözlər tamam başqa məna və hisslər qazana bilir. Birinin sakit və yumşaq tonu rahatlıq gətirdiyi halda, digərinin sərt və qəti səsi qərarlılığı ifadə edir. Bu, səsin sadəcə fiziki bir vasitə deyil, həm də emosional bir dil olduğunu göstərir.

Səsimiz doğulduğumuz andan bizimlədir və zamanla formalaşaraq şəxsiyyətimizin bir hissəsinə çevrilir. Uşaqlıqda incə və zəif olan səs illər keçdikcə güclənir, təcrübə və yaşantılarla daha dərin çalarlar qazanır. Hər gülüş, hər kədər, hər sevinc səsimizdə iz buraxır. Buna görə də bəzən bir insanın səsini eşitmək onun keçirdiyi hissləri anlamaq üçün kifayət edir.

Bizə bəxş edilən bu nemətlə ünsiyyət qururuq, sevinc, kədər kimi hisslərimizi və fikirlərimizi ifadə edirik. İnsan səsi müxtəlif tonlarına görə, bu günə qədər düzəldilmiş musiqi alətlərindən milyon dəfələrlə üstün quruluşa və funksiyaya malikdir. Musiqi alətləri zaman keçdikcə köhnəlir, xarab olur, qulluğa ehtiyacı olur, ancaq səsimiz xarab olmadan, köhnəlmədən, özü-özünə qulluq edərək ömrümüz boyu bizə xidmət edir.

Bir səsin yaranması zamanı ən az 11 xarakterik nöqtə təsirlidir. Bunlar nəfəs ilə başlayan və içində səs teli, qırtlaq, boğaz, dil, diş, dodaq ünsürləridir. Bu 11 xüsusiyyət səsin yaranmasına təsir edir. Səsin yaranmasında beynin göndərdiyi siqnallar təsirli olduğu üçün insanın daxilindəki vəziyyət, gözlərdən və qulaqlardan gələn siqnallar da effektlidir.

## Qadınların səsi niyə incədir?

Maraqlısı budur ki, eyni səs tonuna sahib iki insanın olması mümkünsüzdür. Bəlkə də müəyyən təhsillə bənzər səslərin çıxarılması mümkün ola bilər, ancaq insanlar eyni səs tonuna malik ola bilməzlər. Qadınların səslərinin kişilərlə müqayisədə daha incə bir xüsusiyyətə sahib olmasının səbəbi səs tellərinin quruluşu ilə əlaqəlidir. Qadınlara aid səs tellərinin uzun olması, onların səsinin daha incə olmasına səbəbdir. Kişilərin səs tellərinin qısa olması isə qalın quruluşa sahib olmalarına şərait yaradır.

## Səslə bağlı maraqlı faktlar...

BBC-nin elmi proqramı “The Curious Cases of Rutherford & Fry” insan səsi ilə bağlı araşdırma aparıb. Araşdırma zamanı maraqlı faktlar əldə edilib:

Araşdırmaya görə, körpələr valideynlərinin aksentini hələ ana bətnində olarkən mənimsəməyə başlayırlar. Tədqiqatçılar Fransa və Almaniyada yeni doğulan körpələri müşahidə edərək müəyyən ediblər ki, körpələrin ağlaması səsi onların ana dilinin vəznini təkrarlayır. Bu xüsusiyyət əsasında körpələri onların ağlama səsinə uyğun olaraq ölkələrinə müvafiq ayırmaq mümkündür.

Səsin əmələgəlmə prosesi döş qəfəsindən başlayır - nəfəs aldığımız havanı boğazımızdakı səs aparatına göndərdiyiniz zaman səs əmələ gəlir. Səs tellərindən hava axını keçəndə həmin tellər titrəməyə başlayır, nəticədə, cingiltili bir səs yaranır. Bundan sonra çənə, dil və damağın yumşaq hissəsi hərəkətə gəlməklə səs formalaşır.

Oğlanlarda yeniyetmə yaşlarında səs yoğunlaşır - çünki kişilərdə boğazın səs telləri həmin dövrdə aşağı enir, boğazlarında xirtdək əmələ gəlir. Səs telləri ilə ağız arasında məsafə uzanır və nəticədə kişilərin səsi daha yoğun çıxır.

İnsan yaşa dolduqca, onun əzələləri, səs telləri boşalır, nəticədə, yaşlı insan danışanda səs aparatından hava kənara sızır və danışıq səsinə nəfəs səsi də qarışır. Eyni zamanda, uzun cümlələrlə də danışmaq mümkün olmur, çünki nəfəs çatmır. Yaşlaşanda əzələlər boşaldığından, səs yenidən nazilə bilir.

Araşdırma zamanı insan səsinin bədəndən daha yavaş sürətlə yaşlaşdığı müəyyən edilib.

## Səsin gümrah çıxmasını necə təmin etməli?

Yaşa dolduqca bədənimiz kimi, səsimizin də tellərini sağlam saxlamaq üçün vaxtaşırı məşq etdirməliyik. Məsələn, xora yazılmaq ola bilər. Həm səsiniz qaydasında olacaq, həm də əylənəcəksiz, insanlarla ünsiyyətdə olacaqsınız.

Qeyd edək ki, bu gün Ümumdünya Səs Günüdür. Səs gününün qeyd olunması 1998-ci ildə Braziliya Lorinqologia və Səs Cərrahiyyəsi cəmiyyətinin təşəbbüsü ilə başlanılıb. 2002-ci ildən Amerika Baş və Boyun Cərrahiyyəsi Akademiyasının təşəbbüsü ilə hər il aprelin 16-sı Ümumdünya Səs Günü kimi qeyd olunur. Həmin günün əsas məqsədi ictimaiyyəti səsin insan həyatındakı rolu və əhəmiyyəti, səsdə yarana biləcək problemlər haqqında informasiya verməkdən ibarətdir.

*Yeganə BAYRAMOVA*

# Yeni virus təhlükəsi...

## Dəniz məhsullarında rast gəlinir

*Yeganə BAYRAMOVA*

Son günlər yayılan yeni - CMNV virusu narahatlıqlara səbəb olub. Çində alimlər əvvəllər yalnız balıq və krevetlərdə rast gəlinən bu virusun artıq insanlarda da aşkarlandığını bildirirlər. Virus gözlərdə iltihab yaradır və gözdaxili təzyiqi artırır. Bu isə ağır hallarda görmə qabiliyyətinin itirilməsinə - korluğa qədər gətirib çıxara bilər.

**Hazırda müalicəsi yoxdur**

Mütəxəssislər qeyd edir ki, yoluxma halları əsasən çiy balıq istehlakı və ya dəniz məhsulları ilə qoruyucu vasitələr olmadan təmas zamanı baş verir. Hazırda virusun spesifik müalicəsi yoxdur. Həkimlər yalnız iltihabı azaltmaq və gözdaxili təzyiqi nəzarətdə saxlamaq üçün simptomatik preparatlardan istifadə edirlər. Bununla belə, virusun istiliklə məhv olduğu vurğulanır.

Qeyd olunur ki, indiyə qədər yoluxma halları məhdud saydadır. Lakin COVID-19 pandemiyasından sonra Çində ortaya çıxan yeni viruslarla bağlı xəbərlər dünya ictimaiyyətində ciddi narahatlıq doğurur.

Tədqiqatçılar virusa yoluxmuş xəstələrdən müsahibə götürüblər. Onlardan təxminən dörddə üçü ya çiy dəniz məhsullarını bişirərkən əlcəkdən istifadə etməyib, ya da dəniz məhsullarını çiy halda yeyiblər.

**Simptomları nədir?**

Virusun simptomları əsasən su mühitində yaşayan canlılarda tədricən inkişaf edən və ilkin mərhələdə çox vaxt nəzərə çarpmayan, lakin xəstəlik irəlilədikcə daha aydın şəkildə ortaya çıxan klinik əlamətlər şəklində özünü göstərir. Belə ki, yoluxmuş orqanizmlərdə ilk olaraq qidalanma zəifləyir, yem qəbulunun azalması və ümumi aktivliyin düşməsi müşahidə olunur.

**CMNV-nin əlamətləri hansıdır?**



İqlim dəyişikliyi virusun vəhşi təbiətdən yayılma riskini artıraraq insan sağlamlığı üçün təhlükə yaradır. Bu yaxınlarda “POH-VAU” adlı göz xəstəliyi ortaya çıxıb, lakin səbəb aydın deyil. Alimlər xəstəliyin CMNV ilə əlaqəli olduğunu bildirirlər.

**Necə qorunaq?**

Virusdan qorunmaq üçün ilkin olaraq bir neçə qaydalara əməl etmək vacibdir. Birbaşa dəniz heyvanları ilə təması riskini azaltmaq lazımdır. Bundan başqa, gigiyena qaydalarına əməl etmək, fərdi qoruyucu vasitələrdən istifadə də vacib şərtdir.

# Astronomlar: Kainat gözlənildiyindən daha sürətlə genişlənir

Astronomların sanballı beynəlxalq tədqiqatı Günəş sisteminə yaxın qalaktikaların gözləniləndən daha sürətli şəkildə uzaqlaşdığını təsdiqləyib. “Habl” sabiti kimi tanınan bu sürət Kainatın nə qədər sürətlə genişləndiyini təsvir edir. Yeni analiz meqaparsaniyə ölçüsü ilə təxminən saniyədə 73,5 kilometr dəyərində bir meyar tapıb, yəni qalaktika nə qədər uzaqdadırsa, bizdən bir o qədər sürətlə uzaqlaşır.

AZƏRTAC “Astronomy Magazine” jurnalına istinadla xəbər verir ki, alimlər erkən Kainatın siqnallarından istifadə edərək daha uzaqlara baxdıqda, daha aşağı bir rəqəm, təxminən saniyədə 67 kilometr rəqəmi əldə edirlər.

Bu fərq kiçik görünə bilər, lakin tədqiqatçılar bunun sadə bir səhv kimi gözardı edilməsinə qarşıdırlar. Fərq artıq o səviyyəyə çatıb ki, onların fikrincə, bu, təsadüfən baş verə bilməz. Tez-tez “Habl gərginliyi” adlanan problem təkmilləşdirilmiş alətlərə, daha yaxşı məlumatlara və diqqətli yoxlamalara baxmayaraq, 10 ildən çoxdur davam edir.



Astronomlar tədqiqat aparmaq üçün kosmosda məsafələri ölçməyin bir çox fərqli yolunu birləşdiriblər. Bunlara müəyyən növ partlayan ulduzları və hətta xüsusi qalaktikaları müşahidə etmək də daxildir. Onlar bütün bu metodları “məsafə şəbəkəsi” adlı formatda birləşdirərək, səhvləri azaltmağı və nəticələri çarpaz yoxlamağı hədəfləyiblər.

Hansı etibarlı metodlardan istifadə olunmasından asılı olmayaraq, Kainatın yaxınlıqdakı hissəsində daha sürətli genişlənmə sürəti sabit qalıb. Qeyd olunub ki, ya ölçmələrdə hələ də naməlum bir problem var, ya da Kainatın necə işlədiyini anlamağımızda vacib bir detal çatışmır.

Tədqiqatçılar ikinci variantı görməzlikdən gəlməyin getdikcə çətinləşdiyini söyləyirlər. Təsdiqlənərsə, bu, Kainat haqqında mövcud nəzəriyyələrin yenidən nəzərdən keçirilməsinə ehtiyac ola biləcəyi anlamına gələ bilər. Hələ ki, sirr açılmamış qalır. Əvvəlkindən daha yaxşı məlumatlara baxmayaraq, Kainat alimlərin izah edə biləcəyindən daha sürətli genişlənməyə davam edir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5229**
**Sifariş: 493**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova